# Fatmayı kəndinin dini-ruhani irsi...

## "Abşeron bölgəsinin sakral coğrafiyası" silsiləsindən)

Xəzər dənizi sahillərindən Keyrəki dağı ətəklərinədək geniş ərazini tutan Fatmayı kəndinin dini-sakral, mənəvi-ruhani, irfani-fəlsəfi, mistik-inam...irsi sırasında Haqq dünyası ocaqları, qəbirüstü epiqrafik yazılı, miniatwr/simvolik naxışlı sənduqələr və baş daşları, əski qəbirstanlıqlar (bu kənddə iki qəbirstanlıq var-Əlibəndəlilər məhəlləsi yaxınlığındakı yaşı 600 ildən çox olan və "Bağlar yolu" üstündəki İmam Hüseyn məscidi ətrafındakı 250 illik tarixi olan məzargahlıq), dini-ibadət yerləri (beş məscid), Türk Şəhidləri və yerli Mücahidlərin müqəddəs qəbirləri, el ziyarətgahı olan Piri-Sərban dağı, eləcə də, məşhur din xadimlərinin həyatı, İrfan-İman Müctəhidləri...xüsusi yer tutur. Mübarək Peyğəmbərimizin sünnəsi kimi bu kəndin cammatı İlahi-Haqqa yönələn duaları ilə Piri-Sərban dağında göyə əl açıblar, Xəzər dənizinə tərəf üz tutuban Uca Haqq qarşısında boyun əyərək, ülvi niyyətlərinin qəbul olunmasını diləmişlər.




Kəndin quzey hissəsində, qədim "Beynəlxalq İpək Yolu" keçən karvan yolunun üstündə, Poladlılar məhəlləsində ucalan Piri-Sarvan dağı ilə bağlı sakral-qüdsiyyə ruhlu ilə (bu yol həm də, müqəddəs ziyarət-ibadət ocaqlarından keçmişdir) doğma məzmun kəsb edən xalq rəvayətləri yaranmışdır. Deyilir ki, pirani sarban-Şeyx İbadullah dəvə karvanı önündə birinci dəvənin hovsarı əlində ağır-ağır addımlayır, Fatmayı kəndinə çatar-çatmaz bu yüksəkliyin (kənddən quzeyə tərəf 2 km aralıda, 55 m hündürlükdə) ətəyində düşərgələnirlər. Karvan heyəti dağ-dəniz havasından "fəth olunan" (iyun-iyul aylarında xəfif dəniz mehi bu yeri bütünlüklə "tül pərdəyə bürüyür"), bu yerdə qərsimış nəfəslərini dərər, namazlarını qılar, "Müsəlləh/Müqəddəs yer" gümanında səhərə qədər zikr edərdilər, mənən rahat olardılar, möminləşərdilər. Xıdır Zində dağından Pir Allahı ocağına kimi uzanan bu irfan-dəvə karvan yolu bulaq-quyu suyu çıxan yerlərdən keçmişdir....Giləzi, Çaylı, Ceyranbatan, Saray, Növxanı, Fatmayı, Digah, Məhəmmədi....yolları üstə karvan sahiblərinin sifarişləri ilə, qızıl pulla, eləcə də, iman-Haqq əhlinin qadırdıqları quyular (XIX əsrdə qazılmış Hacı Heybət quyusu, Kərbəlayi Xocabəy quyusu, Kərbəlayi Aslan quyusu...) su hodamları (kəhrizlər) olmuş, suyuna and içilmişdir.

O quyulardan biri də Piri-Sərban dağında idi. İlin quraq dövründə yağış-su həsrətli yaşlı-imanlı xanımlar (Cəvahir Məhəmmədəli qızı (1892-1965), Balacaxanım Ağamurad qızı (1898-1964) və onlara qoşulan yeniyetmələr)camaatı Müsəlliyə-Dua mərasiminə çağıranda yuxa bişirib, qazan asıb südlü "Allah aşı" bişirəndə (və hamiya tutiya kimi paylayardılar) həmin quyu suyundan istifadə ediblər, Haqqa yönəlik dualarını müqəddəs su ilə "yoğurardılar":

*Fatma ana, nə istər,*
*Allahdan yağış istər.*
*Əli xəmirdə qalıb,*
*Bircə damcı su istər...*

Mistik-İlahi qüvvə Xəzər dənizi üzərindən qara buludları axıdanda, yağış yağanda İman əhlinin və əkin-biçin yiyələrinin ruhları necə də sevinərdi...axı, güclü inamları var idi:

-Hər bəla gələr, amma bizə dəyməz...

Piri-Sərbanlardan birinin-Peyğəmbər-İmam sünnəsi kimi xatırlanan ruhaninin qəbri bu yüksəkliyin ətəyində olub və ziyarətgah idi, amma, 1930-cu illərdə dağıdılsa da, yeri müqəddəs sayılırdı. Bu yerdən 2-3 km aralıda Pirşağı kəndinin yaranması da dini-imanlı şəxslərin adı ilə bağlıdır.

Türk etnomilli dini-sakral dünyadərkində Sərban mistik tapınma kultu müqəddəs sayılmış, ibadət və ziyarət ocaqlarına ilk ayaq basan da Sərban olub (Salyan nahiyəsində Sarvan/Sərban kəndi qədim yaşayış məntəqəsidir, Naxçıvan diyarında Nehrəm kəndindən Badamlı qəsəbəsinə gedən yolun üstündə Sarvanlar meşəsi salınıb, Aran Borçalı mahalında Sarvan kəndi Türk elatının yurdu olub..). Ətraf kəndlərin ziyarətgahı olmuş Piri-Sərvan ocağı və Xanımcan piri ilə yanaşı, Fatmayı kəndinin hər bir məhəlləsinin öz məscidi, cümə namazgahı olmuşdur-XV əsrdə tikilmiş Hacı Heybət məscidi, XVI əsr yadigarı Əlibəddin məscidi, XVIII əsrdə Qobustan mahalının Poladlı-Kolanı yurdlarından gəlmiş tərəkəmə elatının ocağı-Poladlılar məscidi..-.indi də fəaliyyət göstərir.

XX əsrin əvvəllərində yerli xeyriyyəçi Hacı Hüseynin vəsaiti hesabına İmam Hüseyn namazgahını inşa etdirmişdir (ona bitişik qədim, XV əsrdə salınmış qəbirstanlıq var).

Fatmayı kəndi dini ziyalıları ilə (Şeyx Ağashüseyn Mirzə Hüseyn oğlu (1886-1944), molla Hacıbaba, molla Hacıbala, Təzəpir məscidinin axundu Məzahir Mirzəqulu oğlu (1905-1983, Quranı Hicaz səsi ilə oxuyardı, muğam ustadı, xanəndə, xalq artisti Xan Şuşinskinin (1901-1979) yas məclisini aparıb), məşədi Həmzə, molla Həsən...) tanınıb Abşeron mahalında.

Ayrı-ayrı din xadimlərinin ocağında keçirilən irfani-fəlsəfi, dini-ədəbi məclislər İlahi Haqq yolunun, Uca Yaradana tapınmanın təcəlla ruhu ilə zəngin olardı, neçə-neçə nəsil bu ruha köklənərək tərbiyə olunmuşdur. İman əhli olan Əli Kərbəlayi Qafar oğlunun (1938-2005) evində qurulan bu cür məclislərdə qəzəlxan-şair hacı Mail İsmayıl oğlu (1935-1999), şərqşünas alim-akademik V.M.Məmmədəliyev (1942-2019), bəstəkar-professor Xəyyam Mirzəzadə (1935-2018), görkəmli xanəndə-muğam ustası, xalq artisti A.M.Abdullayev (1950-2016)...ədəbiyyatdan, dini-fəlsəfi və mistik təlimdən, tarixdən, din xadimlərinin həyatından, İmam Hüseyn ocağının nəzm ustadı M.Füzulinin (1494-1556) irfani-ədəbi irsindən...səhərə qədər söhbətlər aparardılar, şer-qəzəl məclisi olmaqla yanaşı, həm də hikmətli nəsihət və tövsiyələrini əsirgəməzdilər. Qəzəliyyat-şeriyyat mincat ruhunda idi, məşhur səyyah Hacı Zeynalabdin Şirvani-Təmkin (1780-1838) imzalı Allaha xitabən yazılmış qəzəllər, dini-fəlsəfi məzmunlu "Ariflər bağı" (1832),"Biliklər açarı" (1834) əsərləri, sufi filosofu C.Ruminin (1207-1273) "Məsnəvi"si (1895) təhlil edilirdi. 1980-ci ilin oprtalarınadək davam edən bu məclislər əsil dünyəvi-dini təlimlərin elmi-tərbiyəvi ocaqları kimi qiymətləndirilirdi.

XX əsrdə Abşeron bölgəsində məşhur olmuş musiqili, ədəbi-bədii məclislərlərlə yanaşı, bu cür dini-fəlsəfi yığıncaqlar az olmamışdır, o cümlədən, Fatmayı kəndində...

Haşiyə. Ömrünün 40 ilini səyahətdə keçirmiş H.Z.Şirvani-Təmkin həm də Sufiliyin Nemətullahiyyə təriqətinin 31-ci qütbü (şeyxi) idi. 1823-ci ildə o, təriqətə rəhbərliyi öhdəyə alaraq "Məstəlişah" ləqəbini qəbul edir və ömrünün sonuna kimi (15 il) nemətullahiyyə təriqətinin başçısı olur. Şirvani 1838-ci ildə həcc ziyarəti zamanı Ciddə şəhərində dünyasını dəyişərək orada basdırılır.

Belə məclislərin birində Məzahir Mirzəqulu oğlu Vasim Məhəmmədəli oğluna xitabən-Yasin surəsinin muğam avazı ilə oxunmasını sual etdikdə, cavab aldı ki, oxuya bilərssən, amma



Türk etnomilli dini-sakral dünyadərkində Sərban mistik tapınma kultu müqəddəs sayılmış, ibadət və ziyarət ocaqlarına ilk ayaq basan da Sərban olub (Salyan nahiyəsində Sarvan/Sərban kəndi qədim yaşayış məntəqəsidir, Naxçıvan diyarında Nehrəm kəndindən Badamlı qəsəbəsinə gedən yolun üstündə Sarvanlar meşəsi salınıb, Aran Borçalı mahalında Sarvan kəndi Türk elatının yurdu olub..).

qiraəti pozmamaq şərti ilə, ayələri düzgün tələffüz etməklə...

Səhərə yaxın məclisin sonunda hacı Mail üzünü ev sahibinə tutaraq deyərdi:

- Allahın əziz adı-Əliyə and olsun ki, Allah-Təalanın hikmətini bir bəşər övladı dərk edə bilməz...

Kərbəla ziyarətinə gedən Gülreyhan Kərbəlayi Novruz qızı (1881-1964) orada dünyasını dəyişib və Nəcəf şəhərində dəfn edilib...

***Qismət Yunusoğlu,***
***Bakı Dövlət Universitetinin müəllimi***

**Qeyd:** Yazının hazırlanmasında həm də Abşeron rayonu, Fatmayı kənd sakinləri Hacıxanım Fatma Əyyub qızı Nadirovanın (1947) və Hacı Seyavuş Məzahir oğlu Əliyevin (1948) məlumatlarından istifadə olunmuşdur.